# Elm və təhsil naziri şəhid anası ilə görüşüb

## Südabə Qazıyeva sertifikatlaşdırmada ölkə üzrə ən yüksək nəticə göstərən müəllimlərdən biridir





Elm və təhsil naziri Emin Əmrullayev Zaqatalaya səfəri zamanı rayonun Aşağı Tala kənd 3 nömrəli tam orta məktəbinin ibtidai sinif müəllimi Südabə Qazıyeva ilə görüşüb. Sertifikatlaşdırmada ölkə üzrə ən yüksək nəticə göstərən təhsil işçilərindən biri olan Vətən Müharibəsi Qəhrəmanı, şəhid Valeh Bədəlovun anası Südabə Qazıyeva ilə səmimi söhbət edən nazir müəllimlərin sertifikatlaşdırılması imtahanının nəticələri və rayonda təhsilin keyfiyyəti barədə fikir mübadiləsi aparıb.

Görüşdə Emin Əmrullayev qeyd edib ki, ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dəmir yumruğu altında vahid bir güc olaraq Müzəffər Ordumuzun sayəsində torpağlarımız işğaldan azad edildi. 44 günlük Vətən müharibəsində şücaət göstərərək şəhid olan oğullarımızın xatirəsini ehtiramla anan nazir Vətən Müharibəsi Qəhrəmanı, Valeh Bədəlov kimi igid bir övlad yetişdirdiyinə görə Südabə Qazıyevaya xüsusi təşəkkürünü bildirib.